السنّة النبوية وعلومها
www.sunnah.global

# İki müsəlman qılıncla (bir-birini öldürmək üçün) qarşı-qarşıya gəlirsə, öldürən də, ölən də cəhənnəmdədir

Əbu Bəkrədən (Allah ondan razı olsun) rəvayət edilən hədisdə Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "İki müsəlman qılıncla (bir-birini öldürmək üçün) qarşı-qarşıya gəlirsə, öldürən də, ölən də cəhənnəmdədir". Dedim: "Ey Allahın Rəsulu, bu qatildir, bəs ölənin günahı nədir? (O niyə cəhənnəmdədir?) Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) buyurdu: "O da, müsəlman qardaşını öldürmək istəyirdi".

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) xəbər verir ki, iki müsəlman bir-birini öldürmək üçün qarşılaşdıqda, öldürən kəs əks tərəfi öldürdüyü üçün cəhənnəmdədir. Lakin səhabələr: "Öldürülən necə cəhənnəmdə olur?" deyə heyrətə düşmüşdülər. Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) də bildirdi ki, o da öz qardaşını öldürməyə cəhd etdiyi üçün cəhənnəmdədir. Onun öldürə bilməməsi, öldürənin daha cəld olduğuna görə rəqibini qabaqlamasına görədir.

https://www.sunnah.global/hadeeth/az/show/4304

النجاة الخيرية
ALNAJAT CHARITY
لجنة الدعوة الإلكترونية
EDC E-Da'wah Committee